“İncəsənət və dizayn” fənn birləşmə komissiyası

“İncəsənət və dizayn” fənn birləşmə komissiyası 2026-cı ildən fəaliyyət göstərir. Komissiyanın sədri Emil Ağayevdir.

Fənn birləşmə komissiyasında “Fiziki tərbiyə müəllimliyi”, “Rəngkarlıq” (dekorativ rəngkarlıq), “Dekorativ-tətbiqi sənət” (bədii şüşə), “Dizayn” (moda) və “Tikiş məmulatlarının və trikotaj istehsalı texnologiyası” ixtisasları üzrə tədris prosesi həyata keçirilir.

Komissiyanın heyəti 30 nəfərdən ibarətdir. Onlardan 24 nəfəri tam ştat, 6 nəfəri isə 0,5 ştat müəllim vəzifəsində fəaliyyət göstərir.

Tədris prosesi müvafiq tədris planları və fənn proqramları əsasında təşkil olunur. Ümumi orta təhsil bazasından qəbul olunmuş tələbələr üçün təhsil müddəti 3 il, tam orta təhsil bazasından qəbul olunmuş tələbələr üçün isə 2 il təşkil edir. Müəllimlər tərəfindən tədris olunan bütün fənlər üzrə müvafiq tədris proqramları əsasında işçi proqramlar (sillabuslar) hazırlanmışdır.

Tədris jurnallarında əks olunan mövzular fənlər üzrə təsdiq edilmiş təqvim-tematik planlara və tədris proqramlarına uyğunlaşdırılmışdır. Eyni zamanda, tələbələrin davamiyyəti müvafiq qaydada qeydə alınır, bilik və bacarıqları 100 ballıq qiymətləndirmə sistemi əsasında qiymətləndirilir.

Fənn proqramları hər beş ildən bir və ya kollecin tədris planlarında baş verən müvafiq dəyişikliklərə uyğun olaraq yenilənir. Fənn birləşmə komissiyasının aparıcı müəllimləri tərəfindən 30 fənn proqramı təkmilləşdirilmiş, 20 fənn proqramı isə Elm və Təhsil nazirinin müvafiq əmrləri ilə qrif almışdır.

Fənn proqramları məzmun aktuallığı, elmi-metodiki əsaslandırılması və tədris məqsədlərinə uyğunluğu ilə səciyyələnir. Proqramlarda fənlərin məzmununu əhatə edən mövzular, onların tədris ardıcıllığı və semestrlər üzrə saat bölgüsü əks olunmuşdur. Bu proqramlar tələbələrin müvafiq sahələr üzrə nəzəri biliklərinin və praktik bacarıqlarının formalaşdırılmasına, eləcə də analitik təfəkkür və təhlil qabiliyyətlərinin inkişafına xidmət edir.

Tədris materiallarının daha dərindən mənimsənilməsini təmin etmək, tədrisin keyfiyyətini yüksəltmək və müəllimlərin metodiki fəaliyyətini dəstəkləmək məqsədilə komissiyanın müəllimləri tərəfindən metodik vəsaitlər, dərs vəsaitləri və dərsliklər hazırlanaraq nəşr edilmişdir. Metodik və dərs vəsaitləri kollecin Pedaqoji Şurasının qərarı ilə, dərsliklər isə Elm və Təhsil nazirinin müvafiq əmrləri əsasında təsdiq edilmiş və nəşrinə icazə verilmişdir.

“İncəsənət və dizayn” fənn birləşmə komissiyasının heyəti:

№	Müəllimin soyadı, adı, atasının adı
1	Nəsibov Rüfət Novruz
2	Həmzəbəyova Təranə AğaRza
3	Cəfərli İlahə Şakir
4	İmanova Ülviyyə Polad

5	Ağayev Emil Raul
6	Seyfullayeva Aynur Tahir
7	Orucova Nurcahan Rasim
8	Xəlilova Səadət Balaəhməd
9	Salmanov Elnur Telman
10	Xəlilov Rövşən Əjdər
11	Nərimanov Şahəddin Aslan
12	Hacıyeva Sevda Məhəmməd
13	Quliyev Rövşən Zakir
14	Çobanova Nərgiz Məhəmməd
15	Quliyev Toğrul Elman
16	Qaragözova Nigar Telman
17	Mansırova Şahanə Zülfüqar
18	Mahmudova Rəsmiyyə Nəriman
19	Hüseynova Mənzər Məmmədrəsul
20	Əliyeva Ruhəngiz Əlabbas
21	Həşimli Kəbirə Məstan
22	Sadiyeva Arzu Aslan
23	Babaxanova Sevinc Mahmudağa
24	Vahabova Arzu İmran
25	Adıgözəl Briliant Əlinasib
26	Əliyeva Sevil Bayram
27	Quliyeva Zəkiyyə Şahmar
28	Hüseynova Könül Sahib
29	Seyidova Ləman Rafael
30	Cəfərli Nəzrin Elçin